# Cehiz güzgüsü



*İsi MƏLİKZADƏ*

**(əvvəli qəzetin 31 oktyabr sayında)**

**(Hekayə)**

Qalxmaq məqamı çatanda Nəsir çaypaylayan oğlanı çağırdı.

- Çayın dəmi ötüb, - dedi. - Samovarın dalında dayanan çayçı qardaşa yetirərsən gileyimi.

Oğlan dirənə-dirənə dedi.

- Dəmi ötməyib təzədi...

Nəsir bir əlini sinəsinə qoyub, boynunu bükdü.

- Mənə yox də... Mən bu işin professoruyam.

Nəsir stolun üstünə iki dənə şax təklik tulladı. Çölə çıxanda Əlibalaya göz vurdu.

- Qəsdən pulu artıq verdim ki, xəcalət çəksin, başa düşsün ki, bu, söyüşdü ona...

Çox axtarandan sonra köhnə univermaqdan ürəyinə yatan bir güzgü aldı Nəsir. Əsl cehiz güzgüsü idi; iri, dördkünc, qıraqları naxışlı. Nəsir güzgünü kağıza yaxşı-yaxşı bükdürüb, qucağına götürdü.

- Xalaoğlu sevinəcək dedi. - Allah hamını sevindirsin.

Küçədə Əlibalanı arxada qoydu,

-Mənnən aralı yeri, - dedi. - Toxunub güzgünü sındırarsan. Dalımca gəl, mehmanxana yaxındadı. Orda işləyənlərin hamısı məni tanıyır. Paltarasandan tutmuş, ta müdirəcən.

Yalvar-yaxardan, xahiş-minnətdən sonra Nəsir bir gecəliyə yer ala bildi. Otaqları üçüncü mərtəbədəydi. Nəsir liftə minmədi.

- Buna çox etibar eləmək olmaz, - dedi. - Birdən başı üstə gələr aşağı, güzgü qırılar.

Nəsir güzgünü sinəsinə basıb ləhləyə-ləhləyə, ehmal-ehmal pillələkənləri qalxdı, Əlibala da onun dalınca. Üçüncü mərtəbədə növbətçi stolunun arxasında oturmuş ortayaşlı qadını görəndə Nəsirin gözləri işıqlandı.

- Ay salam-əleykim, ay salam-əleykim! - dedi. İstədi qadına əl versin, yan-yörəyə nəzər saldı, güzgünü qoymağa yer tapmadı, Əlibalaya baxdı, deyəsən, güzgünü ona da etibar eləmədi. Təzədən üzünü qadına tutdu. - Xoş gördük, bajı, nə var, nə yox, nə təhərsən?

Nəsir çox məhrəm danışırdı, köhnə tanış kimi, dost kimi, lap yaxın qohum kimi danışırdı və onun belə danışmağı qadını çaşdırmışdı. Qadın əlini səliqə ilə daranmış xına rəngli saçına çəkə-çəkə Nəsirə baxırdı, amma deyəsən, tanıya bilmirdi onu. Nəsir gördü ki, qadının üzünə, ağappaq boğazına təzə-təzə qırışlar düşür. Nəsir qayğılı görkəm aldı, qayğılı səslə soruşdu:

- Nə təhər dolanırsan? Qızın institutu qurtardımı?

Bayaqdan key kimi oturub qalmış qadının gözlərində təbəssüm dolandı, boyalı dodaqları tərpəndi.

- Qız institutu qurtardı, - dedi. - Ərə də getdi.

Nəsir:

- Xoşbəxt olsun, bajı, xoşbəxt olsun, - dedi, başıyla qucağındakı güzgüyə işarə elədi. - Elə biz də xeyir iş üçün gəlmişik. Allah hamının balasına toy qismət eləsin.

Nəsirin dilavərliyi, deyəsən, qadının xoşuna gəldi. Gülümsəyə-gülümsəyə:

- Bağışlayın, - dedi, - sizi tanıya bilmirəm, axı.

Nəsir qaldı udquna-udquna, elə bil bəd xəbər eşitmişdi. Handan-hana başını döndərib pərt-pərt Əlibalaya baxdı və hiss elədi ki, Əlibala ondan betər pərtdi. Təzədən üzünü qadına tutub çaş-çaş gülümsədi:

- Keçən dəfə Qaraşnan gəlmişdik, - dedi. - Şofer Qaraşnan... Yadına düşmədi?

Qadın başını buladı.

- Yox, - dedi. - Heç Qaraşı da tanımıram.

Nəsir güzgünü sinəsinə bir az da bərk sıxdı.

- Ola bilməz, - dedi. - Keçən dəfə şofer Qaraşnan elə bu mərtəbəyə düşmüşdük, sən onda da dejurnıydın. Biz keçən dəfə...

Qadın onun sözünü kəsdi:

- Keçən dəfə? Nə vaxt?

- İnişil... yayda...

Qadın elə güman elədi ki, Nəsir onu ələ salır. Nazik, aypara qaşlarını dartıb:

- Rəhmətliyin oğlu, - dedi, - xalq səhər yediyini günorta yadından çıxardır, sən də başlamısan... Mən də elə bilirəm keçən həftə olmusan burda... İnişil!.. İnişildən bəri, bilirsən bura nə qədər adam gəlib?.. İnişil ha! - Və qadın başladı çiyinləri atıla-atıla gülməyə...

Nəsir otaqda da özünə gələ bilmirdi. Oturmuşdu çarpayıda, güzgü də qucağında, utandığından Əlibalanın üzünə baxmırdı.

Nəsir qalxıb güzgünü usdufca qoydu çarpayının üstünə

- Nə təhər yəni "tanımadım", ə? Keçən dəfə Qaraşnan... Qaraş hər düşüb qalxanda buna bir plitka şaqalad verərdi. Biznən nə qədər söhbət eləyib bu? Bəs mən hardan bilirəm ki, bunun qızı... Özü demişdi. Demişdi ki, qızım gələn il institutu qurtarır. Qəribə adamlar var dünyada... "Tanımadım"a bax ey... Burda məni hamı tanıyır. Burda başımın tükü sanı... Keçən dəfə Qaraşnan...

Şofer Qaraş yük maşını sürürdü və tez-tez Bakıya gəlib, hansı anbardansa rayona yük daşıyırdı. İnişil yayda şofer Qaraş Bakıya gələndə Nəsiri də gətirmişdi özüylə. Demişdi, armudu stəkan yeri bilirəm, balaca nəlbəki yeri bilirəm. Düzü, stəkan-nəlbəki Nəsirin eyninə deyildi - stəkan-nəlbəkini rayonda da tapmaq olardı. Nəsir Bakını görmək istəyirdi, "ölüm-itim dünyasıdı, - deyirdi, - qoy heç olmasa bircə dəfə Bakıya ayağım dəysin". Amma Bakıda stəkan-nəlbəki tapılmamışdı. Əvəzində şofer Qaraş Nəsiri aparmışdı "Kubinka"nın yanındakı balaca həyətlərin birinə və Nəsir həmin balaca həyətdən bir çamadan hind çayı almışdı. Nəsir o çaydan çürcənəyə beşaltı dəmlik töküb vermişdi bax bu növbətçi arvada. "Yaxşı arvaddı, - demişdi, - mehriban arvaddı, ürəyi çay istəyəndə dəmləyib içər".

- Nə təhər yəni "tanımadım", ə? - Nəsir qapıya tərəf gedə-gedə: - Əlibala, burda ol, gəlirəm, güzgüyə də əl vurma, - dedi və otaqdan çıxdı.

Əlibala pəncərənin qabağında dayanıb, işığa qərq olmuş küçəyə baxırdı. Yorğun olsa da, bu yay gecəsində Bakını qarış-qarış gəzmək istəyirdi. Amma bilirdi ki, Nəsir mehmanxanadan çıxmayacaq, güzgünü burda qoyub heç hara getməyəcək.

Beş-on dəqiqədən sonra Nəsir gülə-gülə içəri girdi.

- Tanıdı, ə, yadına saldım. Qaraşı da tanıdı... Əlibala, dur, düşək restorana, öldürdüm səni acından.

Nəsir qapının ağzında dayanıb restoranın içinə diqqətlə baxandan sonra:

- Gəl, o dibdə oturaq, - dedi.

Yemək sifariş verəndə Nəsir gözlərini xörəkpaylayan kök arvadın üzündən çəkmirdi, elə bil menyu arvadın üzündə yazılmışdı və Nəsir xörəklərin adını ordan oxuyurdu. Amma arvad öz işində idi. Nəsirin ona zəndlə baxdığını ya görmürdü, ya da özünü görməməzliyə qoyurdu...

İşləri avand gətirdiyi üçün Nəsir yüz qram da araq içdi. Xörəkpaylayan qadın hər dəfə onların stoluna yaxınlaşanda Nəsir gözlərini arvadın üzünə zilləyib sirli, müəmmalı tərzdə gülümsəyirdi və Əlibala qorxurdu ki, Nəsir bu dəqiqə soruşacaq: "Məni tanımadın?" Amma Nəsir heç nə soruşmurdu, elə arvada zəndlə baxıb gülümsəyirdi.

Yaxınlıqdakı stolun arxasında iki yeniyetmə oğlan oturmuşdu. Ləngləng yeyirdilər, elə bil bura yeməyə yox, vaxt keçirməyə gəlmişdilər.

- Əlibala, bunları görürsən? Tələbəyə oxşayırlar, - Nəsir oğlanlara altdanaltdan baxıb köks ötürdü. - Allah bilir, hansı rayonnan gəliblər, - dedi. -Süfrələrində içki yoxdu. Kefə gələn olsaydılar araq-çaxır içərdilər... Tələbədirlər, o yan-bu yanı yoxdu.

Nəsir kök arvadı çağırıb yemək-içməyin pulunu verdi.

- Bu uşaqların da haqqını məndən al, - deyib başıyla yandakı yeniyetmələrə işarə elədi. - Amma demə ki, mən vermişəm ha, inciyərlər, denən, "haqqınız çatıb", vəssalam.

Haqq-hesabı verib qurtarandan sonra Nəsir arvadın döşlüyünün cibinə bir beşlik basdı.

- Bu da sənin, bajı, halal-xoşun olsun, - dedi və bayaqkı sirli, müəmmalı təbəssümlə: - Mən səni tanıyıram, - dedi.

Əlibala elə bildi ki, xörəkpaylayan arvad təəccüblənəcək, soruşacaq ki, məni hardan tanıyırsınız. Amma xörəkpaylayan arvad zərrəcən təəccüblənmədi.

- Bura gələnlərin hamısı məni tanıyır, - dedi. Məni tanımağa nə var ki?

- Keçən dəfə Qaraşnan Bakıya gələndə həmişə bu restoranda çörək yeyərdik, həmişə də sən qulluq elədiyin stolu seçərdik. Bayaq içəri girəndə gennən baxdım, gördüm burdasan, bu tərəfə qulluq eləyirsən. Qəsdən gəlib burda oturdum ki, görüm məni tanıyacaqsanmı? Amma, deyəsən, tanımadın.

Qadın restorana yenicə girib nəzərləriylə yer axtaran iki kişiyə baxa-baxa:

- Yadıma gəlmir, - dedi.

Nəsir əl çəkmədi.

- Şofer Qaraşnan gəlmişdik, - dedi.

Əlibala ürəyində allaha yalvardı ki, Nəsir Bakıya inişil gəldiyini deməsin. Desə, bu kök arvad da o növbətçi arvad kimi başlayacaq gülməyə və güləndə bunun çiyinləri yox, göbəyi atılıb-düşəcək.

Xörəkpaylayanın fikri başqa yerdə idi, Nəsir də dediyini deyirdi:

- Biz Qaraşnan oturmuşduq burda - dibdə. Sənə əllilik verdik, xırdan olmadı, gedib bufetdə xırdaladın. İndi yadına düşdü?

Arvad gülə-gülə ona tərəf gələn iki kişini başıyla salamlaya-salamlaya:

- Malades səndəki yaddaşa, - dedi və gülümsəyə-gülümsəyə kişiləri qarşılamağa getdi.

Nəsirin matı-qutu qurudu. Başının dazında, çənəsinin altında tər damcıları göründü. Fikirli-fikirli:

- Dünyada qəribə adamlar var, - dedi. - Buna həmişə beş-altı manat artıq verərdik. Bir dəfə Qaraş onluq verdi. Bir adam mənə on qəpik verəndə on kərə "sağ ol" deyirəm ona. Amma beləsinə nə qədər verirsən, ver, sən deme, üzünü yana döndərən təkin səni yadından çıxardır. Burda işləyənlərə artıq verməK lazımdı, səhərdən axşamacan ayaq üstədilər, hamının nazını çəkirlər. Amma bunların içində nanəcibləri də var. Əlibala, çörəyi dizinin üstündə olanlar var. Elə bilirlər camaat buların dədələrinə borcludu... Gedək, Əlibala, əsas məsələ odu ki, Abdulla xalaoğlunun işi düzəldi. Qalx, yatmaq lazımdı, sabah uzun yol gedəcəyik...

Yol, doğurdan da, uzun idi və bu uzun yolda Nəsir bir dəfə də olsun oturduğu yerdən qalxmadı. Güzgünü qucağından götürmədi, Əlibalaya da vermədi, "sındırarsan" - dedi. Avtobus çala-çuxura düşüb silkələnəndə Nəsir azacıq dikəlirdi ki, güzgü tərpənməsin. Üz-gözünün tərini yaylıqla silmirdi; bir çiynini qaldırıb üzünu sürtürdü çiyninə, sonra o biri çiynini qaldırırdı.

Avtobus yeməkxananın qabağında dayananda da Nəsir yerindən tərpənmədi. Əlibala pendir-çörək alıb gətirdi, anası körpə uşağı yedirdən kimi, Nəsiri yedirtdi. Bir stəkan su gətirib öz əliylə Nəsirə içirtdi. Nəsir dodaqlarını yalaya-yalaya:

- Xalaoğlunun işi yaxşı düzəldi, - dedi...

Avtobus rayona çatıb dayandı, Nəsir yenə yerindən tərpənmədi.

- Qoy hamı düşsün, - dedi. - Toxunub güzgünü qırarlar.

Avtobus boşalandan sonra Nəsir hıqqana-hıqqana yerindən qalxdı. Nəsirin qıçları, qolları keyimişdi, beli zoqquldayırdı, bütün əzaları ağrıyırdı. Nəsir, qıc olmuş adam təkin ayağını qaldırıb bir addım atdı, iki addım atdı və birdən elə bil kimsə güzgünü Nəsirin əlindən alıb avtobusun döşəməsinə çırpdı. Nəsirin əlində güzgünün büküldüyü kağız qaldı. Nəsir gözlərinə inanmadı, inanmaq istəmədi. Qapının ağzında donuxmuş Əlibalaya baxdı, sonra ayaqlarının yanındakı güzgü çiliklərinə baxdı və ağlamsınan kimi oldu. Əlindəki kağızı şüşə qırıntılarının üstünə tullayıb, heysiz-heysiz böyründəki oturacağa çökdü. Üç dəqiqəmi keçdi, beş dəqiqəmi keçdi - amma Əlibala elə gəldi ki, Nəsir düz bir ildi bax beləcə oturub güzgü qırıqlarına baxır - Nəsir başını qaldırıb, batmış səslə dedi:

- Sən get evə, Əlibala. Denən, Nəsir məni yola saldı, özü qaldı Bakıda. Denən, güzgünü mütləq gətirəcək. Mən gedim Ağdama, Bakı poyezinə çataram. Allah qoysa, sabah tezdən Bakıdayam... Get, Əlibala, xalaoğluya denən, ürəyini buz təkin eləsin... Bax, mən sənnən gəlməmişəm ha, mən Bakıda qalmışam. Bildin?

Nəsir Əlibalaya göz vurub gülümsədi, elə gülümsədi ki, Əlibalanın da dodaqları qaçdı.

**1980**